**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№359/3** **28 sentyabr 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı nəzarət proqramı” barədə**

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə” Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.10-cu bəndinin icrası ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı nəzarət proqramı”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı nəzarət proqramı” bəyənilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı nəzarət proqramı”nın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bu “Nəzarət proqramı”nın tətbiqi və ona riayət edilməsi “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq təmin edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Nəzarət proqramı”nın “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək növbəti XII cildinə daxil edilməsi təmin edilsin.
5. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2019-cu il 18 noyabr tarixli 314/4 nömrəli qərarı ilə bəyənilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı nəzarət proqramı” qüvvədən düşmüş hesab edilsin.
6. Bu qərarın və “Nəzarət proqramı”nın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**